**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Афет Гулу гызы Кямалова**

# ДИНАМИКА ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКИХ СЕМЬЯХ

6114.01 – Социальная психология

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по психологии**

**Баку – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AFƏT QULU QIZI KAMALOVA**

# AZƏRBAYCAN AİLƏLƏRİNDƏ AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN DİNAMİKASI

6114.01- Sosial psixologiya

**Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

İş Bakı Dövlət Universitetinin Gender və tətbiqi psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru, professor **Əbdül Əli oğlu Əlizadə**

psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəna Fuad qızı İbrahimbəyova**

Rəsmi opponentlər**:** psixologiya üzrə elmlər doktoru, professor **Ramiz İbrahim oğlu Əliyev**

psixologiya üzrə fəlsəfə doktoru **Ruhəngiz Mehman qızı Qarayeva**

Aparıcı təşkilat: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və sosial psixologiya kafedrası

Müdafiə "_16____" "__03___________" 2016-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan**:** AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, aidutoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.
Avtoreferat "____" "_______________" 2016-cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 23; tiraj 100
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Ötən əsrin axırlarından başlayaraq ailə və nikah problemləri əvvəlki illərə nisbətən daha ciddi xarakter almış, kəskin və qabarıq şəkildə özünü göstərməyə başlamış, onların həlli cəmiyyət üçün xüsusi əhəmiyyətli məsələlər kimi ön plana çıxmışdır. Bu baxımdan, müasir dövrü cəmiyyətdə ailə və onun problemlərinin həllinə marağın artması ilə də səciyyələndirmək olar. Təsadüfi deyil ki, ailə fenomeni ilə bağlı çoxsaylı problemlər müxtəlif sahələrin mütəxəssislərinin–sosioloqların, demoqrafların, pedaqoqların, psixoloqların, filosofların, hüquqşünasların, iqtisadçıların, tarixçilərin, sosial işçilərin və sosial pedaqoqların diqqət mərkəzindədir.

Problemin bu qədər kəskinləşməsinin bir sıra səbəbləri vardır. Bu bir tərəfdən, gənc ailələrin əksəriyyətinin ilk uşağın doğulmasını qeyri-müəyyən vaxtadək təxirə salması, digər tərəfdən, nikahdankənar doğulan uşaqların sayının artması, başqa bir tərəfdən isə boşanmaların sayının çoxalması və doğum səviyyəsinin aşağı düşməsi ilə əlaqadardır. Bunların bir qismi cəmiyyətdə natamam ailələrin və onlarla bağlı bir sıra problemlərin yaranmasına səbəb olursa, digər qismi əhali artımı, ümumiyyətlə, demoqrafik problemlər baxımından narahatlıq doğurur.

Bu yöndə mövcud statistik məlumatlar da ürəkaçan deyil. Statistik məlumatlar bütün dünyada, o cümlədən Azərbaycanda boşanmaların sayının ilbəil artdığını göstərir. Gələcəkdə ciddi fəsadlar doğura biləcək qeyd edilən bu tendensiyaların qarşısını almaq üçün müvafiq tədbirlər görmək zəruridir. Bu baxımdan ailənin əsasını təşkil edən emosional münasibətlərin sistemli şəkildə öyrənilməsi günün aktual məsələlərindən birinə çevrilmişdir.

Ailədaxili münasibətlərin formalaşması mexanizmlərini, qanunauyğunluqlarını bilmək, həm də psixoloji xidmət işinin təşkili, xüsusilə də ailəyə xidmət çərçivəsində psixokorreksiya işinin düzgün qurulması üçün çox əhəmiyyətlidir. Bu da danılmaz faktdır ki, müasir qloballaşma, multikulturalizm və internet şəbəkələrinin geniş yayıldığı və bununla bağlı bütün istiqamətlərə çıxışın olduğu, yəni dünyanın açıq sistemə çevrildiyi bir şəraitdə müxtəlif mədəniyyətlərin biri-birinə təsir imkanları da artmışdır. Bu isə hər bir mədəniyyətə xas olan etnomədəni baxımdan şərtlənmiş ailə dəyərlərinin məzmun və xarakterinə təsirsiz ötüşmür. Azərbaycanda ailə dəyərlərinə belə bir təsirin istiqamət və xarakterini araşdırmaq ailə institutlarında baş verə biləcək dəyişiklikləri müəyyən etmək baxımından da əhəmiyyətlidir.

Ailədaxili münasibətlərdə ortaya çıxan neqativ məqamların həllini zəruri edən mühüm səbəblərdən biri də onun cəmiyyətdə həyata keçirdiyi spesifik funksiyaların əhəmiyyəti ilə bağlıdır. Həmin funksiyalara müvafiq olaraq ailə cəmiyyətdə əhalinin fiziki və mənəvi «təkrar istehsalını» təmin edir. Bu funksiyaların, xüsusilə də uşaqların tərbiyəsi ilə bağlı funksiyaların öhdəsindən gələ bilməyən və «problemli» adlandırılan ailələrin mövcud olması da müasir dövrün tələbləri baxımından ailədaxili münasibətlər probleminin öyrənilməsini labüd edir. Bütün bunlarla yanaşı ailədaxili münasibətlərin tədqiq olunması həm ailə üzvlərinin, həm də onlara yaxın olan insanların fiziki sağlamlığı, eləcə də emosional rahatlığı baxımından da ciddi əhəmiyyət kəsb edir. Bütün bu cəhətləri nəzərə alıb "Azərbaycan ailələrində ailədaxili münasibətlərin dinamikası" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi**. Ailədə münasibətlər probleminə, onun ayrı-ayrı aspektlərinin öyrənilməsinə xeyli sayda tədqiqatlar həsr olunmuşdur.

Bu tədqiqatlarda bir tərəfdən, ailə konfliktləri, onların yaranma səbəbləri, motivləri araşdırılır (D.Mayers, R.Baymeyster, C.Uotman, K.Razbalt, C.Qotman, C.Kellerman, K.Tomas, R.Killmen, R.Kalinina, O.Karabanova, Y.Alyoşina, A.Sisenko, J.Polyakova, A.Tartakovski və b.), ailədə rol davranışı, ailənin tipləri və funksiyaları tədqiq olunur (M.Uisman, A.Dikson, D.Conson, A.Mid, A.Xarçeva, Q.Boqdanov, O.Karabanova, Z.Yankova, E.Kalmıkova, A.Kovalyova və b.), digər tərəfdən isə ər-arvad uyuşmaqlığı, nikahın möhkəmliyi, ər-arvad münasibətləri və ona təsir edən amillər öyrənilir (A.Volkova, L.Çuyko, N.Obozov, A.Obozova, N.Solovyev, A.Sisenko, E.Tiyt, A.Tavit, D. Kutsar və b.). Göstərilən istiqamətlərdə aparılan tədqiqatlarda ailə həyatının müxtəlif aspektləri–ailədə uşaqların tərbiyəsi, ailənin funksiyaları, tipləri, strukturu, nigaha hazırlığı, ailə konfliktləri, onların səbəbləri, aradan qaldırılması yolları, boşanma problemi və s. ilə bağlı həm elmi-nəzəri, həm də kifayət qədər praktik əhəmiyyət kəsb edən dəyərli nəticələr əldə olunmuşdur.

Son dövrlərdə ailənin bir sistem kimi öyrənilməsinə diqqət artmış və bu istiqamətdə də bir sıra tədqiqatlar aparılmışdır (İ.Polyakova, A.Menşova, O.Panova, İ.Bılim, Q.Bılim, R.Kalinina və b.). Bu tədqiqatlarda qadın və kişi arasında münasibətlər sistemi, qohumluq münasibətləri sistemi modellərinə baxılır, faydalı fikir və mülahizələr irəli sürülür.

Respublikamızda da ailə problemlərinin öyrənilməsinə bir sıra tədqiqat işi həsr olunmuşdur (Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, H.Əlizadə, A.Abbasov, K.Əliyeva, R.Qədirova, R.İbrahimbəyova, R.Əliyev,

L.Suleymanova, L. Əliyeva, İ.Allahverdiyeva, A.Seydulla, K.Şiriyeva, S.Xəlilova, S.Əliyeva və b.). Onların tədqiqatlarında yeni qurulmuş ailələrdə konfliktliliyin psixoloji problemlərinə xüsusi diqqət yetirilir, ailə konfliktlərinin səbəbləri araşdırılır, ailələrin dağılması ilə bağlı mühüm səbəblər öyrənilir, dəyərli məlumatlar verilir, fikir və mülahizələr, təklif və tövsiyələr irəli sürülür.

Lakin bütün bunlarla yanaşı müasir dövrdə kifayət qədər ciddi elmi-nəzəri və praktik əhəmiyyət kəsb edən bu problem lazımınca öyrənilməmişdir və burada müəyyən boşluqlar qalmaqdadır. Bütövlükdə isə ailədaxili münasibətlərin dinamikası sistem-struktur yanaşma prizmasından araşdırılmır. Bu da problemin aktuallığını bir daha ön plana çəkir.

**Tədqiqatın obyekti** Azərbaycan ailələrində ailədaxili münasibətlərin dinamikası, münasibətlərin inkişafı və tənzimlənməsinin adekvat yol və vasitələridir. Eyni zamanda, müqayisə məqsədi ilə Azərbaycandakı türk, kürd və ərəb ailələri də tədqiqat obyekti seçilmişdir.

**Tədqiqatın predmeti** ailədaxili münasibətlərin dinamikasına təsir göstərən etno-mədəni və sosiomədəni amillər, bu amillərlə şərtlənmiş fərqlər və onların təzahürləridir.

**Tədqiqatın məqsədi** ailənin rol fəaliyyətində özünü büruzə verən etno-mədəni fərqlərlə malik ailədaxili münasibətlərin dinamikasının müəyyən etmək, bu zəmində ailədaxili münasibətlərin tənzimlənməsi və inkişafının adekvat yol və vasitələrini aşkara çıxarmaqdır.

**Tədqiqatın fərziyyəsi.** Ailədaxili münasibətlərin dinamikasında etno-mədəni və sosiomədəni şərtlənmiş fərqlər mövcuddur və bu fərqlər ailədaxili münasibətlər sistemində qarşılıqlı təsirin məzmun və istiqamətinə əsaslı şəkildə təsir göstərir. Belə bir ümumi fərziyyə ilə yanaşı bir neçə əlavə fərziyyə də əsas götürülmüşdür.

1. Azərbaycan ailələrində çox vaxt bir neçə nəslin birgə yaşaması və bir sıra hallarda onların stereotip və yönümlərinin, adət və ənənələrinin bu və ya digər dərəcədə uyuşmazlığı ailədaxili münasibətlərdə harmoniyanın pozulmasına səbəb olmaqla ailənin dinamikasında müvafiq şəkildə əks olunur.
2. Bir sıra hallarda etnik-psixoloji amillər ailə üzvlərinin mövqe və rol xüsusiyyətlərini müəyyən etməklə, cox vaxt ailədaxili münasibətlərdə müəyyən gərginlik yaradır ki, bu da ailədə münasibətlərin inkişafına təsirsiz ötüşmür.
3. Ailədaxili münasibətlərdə yaranan psixoloji gərginlik və münaqişə vəziyyəti nəinki müxtəlif ailələrdə, hətta eyni bir ailənin həyatında fərqli təzahür xüsusiyyətlərinə malik olur.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədi aşağıdakı konkret vəzifələrin həyata keçirilməsini zəruri edir:

1. Ailədaxili münasibətlər problemi ilə bağlı psixoloji, sosial-psixoloji, eləcə də digər elmi ədəbiyyatı təhlil edib qruplaşdırmaq, tədqiqata kömək edəcək əsas fikir və mülahizələri, səmərəli ideyaları sistemləşdirmək.

2. Sistem yanaşma mövqeyindən ailədaxili münasibətlərdə bu və ya digər şəkildə pozulmalara gətirib çıxara biləcək amillər kompleksini, xüsusən də etnomədəni və sosiomədəni amilləri araşdırmaq.

3. Ailədaxili münasibətlərin dinamikasında etnomədəni və sosiomədəni şərtlənmiş fərqləri aşkar etmək.

4. Ailədaxili münasibətlərin inkişafı və tənziminin adekvat yol və vasitələrini müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji əsasını sosial psixologiya, ümumi psixologiya və ailə psixologiyası sahələrində aparılan nəzəri tədqiqatlar, eləcə də psixoloji tədqiqatın müxtəlif sahələrində əldə olunmuş elmi biliklər sistemi, ailəyə psixoloji yardım və məsləhətvermənin praktik təcrübəsi tədqiqatın elmi-nəzəri və metodoloji əsaslarını təşkil edir.

Tədqiqatda empirik materialların toplanması üçün bir sıra tədqiqat metodlarından xüsusilə də müsahibə, sorğu, müxtəlif tipli anket və testlərlərdən və psixodiaqnostik metodlardan istifadə edilmişdir.Tədqiqatda boşanma ilə bağlı xeyli sayda məhkəmə materiallarının təhlili aparılmış, eləcə də ailə hayatından və statistikadan götürülmüş faktlar təhlil olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində Azərbaycan ailələrində ailədaxili münasibətlərin dinamikası ilk dəfə olaraq etnopsixoloji aspektdən sistem yanaşma prinsipinə əsaslanaraq kompleks şəkildə tədqiq edilmiş, etnopsixoloji və sosial-psixoloji amillərin ailədaxili münasibətlərin xarakterinə və dinamikasına təsiri ilə bağlı yeni məlumatlar üzə çıxarılmışdır. Xüsusilə də ailənin struktur xarakteristikaları (ailənin tipi, uşaqların anadanolma ardıcıllığı, ailədə uşaqların sayı) və ailənin funksional xüsusiyyətləri (valideyn münasibətlərinin xüsusiyyətləri, ailədaxili qarşılıqlı münasibətlərin və ünsiyyətin xüsusiyyətləri), eləcə də etnik-psixoloji amillərin bu və ya digər dərəcədə ailədaxili münasibətlərin xarakterinə və dinamikasına təsir göstərdiyi müəyyən edilmişdir. İlk dəfə olaraq boşanmaların həqiqi motviləri ilə məhkəmə prosesində müəyyən edilən səbəblər arasındakı ciddi fərqlər müəyyənləşdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ailədaxili münasibətlər sistemində qarşılıqlı təsirin məzmun və istiqaməti etnomədəni şərtlənmiş amillərin təsirinə məruz qalır ki, bu da ailədaxili münasibətlərin dinamikasında bu və ya digər şəkildə əks olunmaqla fərqli təzahürlərə səbəb olur.

2. Bir neçə nəslin birgə yaşadığı ailələrdə bir sıra hallarda onların stereotip və yönümlərində, adət və ənənələrində mövcud olan fərqlər ailədaxili münasibətlərdə harmoniyanın pozulmasına səbəb olmaqla, bu münasibətlərin dinamikasında müvafiq izlər buraxır.

3. Ailədaxili münasibətlərdə yaranan psixoloji gərginlik və münaqişə vəziyyəti nəinki müxtəlif ailələrdə, hətta eyni bir ailə daxilində həmin münasibətlərin inkişaf dinamikasında fərqli təzahürlərə malik olur.

4. Ailədaxili münasibətlərdə davranışın davamlı daxili psixoloji səbəbi situativ xarakterli, hansısa ikinci dərəcəli əhəmiyyət kəsb edən, bəhanə xarakterli hadisə ilə eyniləşdirilir. Belə olan halda konfliktlərin bir çox səbəbləri eyni bir motivin müxtəlif bəhanələri qismində çıxış edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatdan əldə olunmuş nəticələr etnik-psixoloji amillərin ailədaxili münasibətlərin inkişaf və xarakterinə təsir mexanizmləri ilə bağlı ümumi nəzəri təsəvvürləri dəqiqləşdirir və dərinləşdirir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın nəticələri və onun əsasında işlənmiş tövsiyələr ailəyə psixoloji xidmətin (ailədaxili münasibətlərin korreksiyası, profilaktikası, məsləhətvermə) həyata keçirilməsində geniş istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiyanın əsas məzmunu, başlıca müddəa və tövsiyələri BDU-nun Gender və tətbiqi psixologiya kafedrasının elmi seminarlarında, gənc tədqiqatçıların elmi konfranslarında, məruzə olunmuş, müzakirə edilmiş, bir neçə elmi məqalə və məruzə tezisləri şəklində çap olunmuş və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## İŞIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəaları müəyyənləşdirilmiş, aprobasiyası haqqında məlumat verilmişdir.

Dissertasiyanın **"Ailədaxili münasibətlərin tədqiqinin nəzəri-tarixi məsələləri"** adlanan 1 fəsil üç yarımfəsildən ibarətdir. **"Psixologiyada ailə-**

**daxili münasibətlər problemi"** adlanan birinci yarımfəsilində "ailə" anlayışı ilə bağlı məsələlərə aydınlıq gətirilir, ayrı-ayrı müəlliflərin mövqeləri geniş təhlil olunur, ümumiləşdirilir və işçi tərifi kimi ailəyə verilən aşağıdakı tərif əsas götürülür: " Ailə müəyyən xassələrə malik (qaydalar, rollar toplusu, səlahiyyət strukturları, ünsiyyət formaları və problemi həlletmə yolları) təbii sosial sistemdir." Ailəyə belə sistem kimi baxıldıqda isə onun təhlil vahidi olaraq ailənin ayrı-ayrı üzvləri (sistemin elementi) deyil, onlar arasındakı qarşılıqlı əlaqə və münasibətlər çıxış edir. Odur ki, burada "sistem", "sistem yanaşma" "sistemin fəaliyyət qanunları" ilə bağlı məsələlərə aydınlıq gətirilir. Daha sonra isə ailədaxili münasibətlərdə yarana biləcək psixoloji problemləri şərtləndirən amillər kompleksi sistem yanaşma mövqeyindən araşdırılır. Belə ki, mövcud elmi ədəbiyyatın təhlili əsasında ailə mühitini şərtləndirən üç qrup parametrlər kompleksinə istinadən ailənin sistem olaraq sosiofiziki, kommunikativ-informasion və fərdi-psixoloji məkan kontekstlərində yerləşən xüsusiyyətləri araşdrılır. Bu məkanların hər biri ilə bağlı ailədaxili münasibətlərdə meydana gələ biləcək problemlər təhlil olunur və bu zəmində də ailəyə psixoloji xidmətin təşkili istiqamətində faydalı ola biləcək təhlil modeli müəyyən edilir. Belə qənaətə gəlinir ki, ailə mühitinin müxtəlif parametrlərində (sosiofiziki, sosial-psixoloji və fərdi psixoloji ) özünü büruzə verən hər hansı çatışmazlıq ailə alt sistemlərindən birində və ya bir neçəsində bu və ya digər istiqamətdə dəyişikliklərə səbəb olur ki, bu da digər alt sistemlərə də nüfuz edir və bütövlükdə, sistemin fəaliyyətinə (ailədaxili münasibətlərə) təsir göstərir. Nəticədə, təsirin xarakterindən asılı olaraq ailə funksional və ya disfunksional mahiyyət kəsb edir.

Birinci fəslin "**Azərbaycan psixologiya elmində ailədaxili münasibətlərin tədqiqi məsələləri**" adlanan ikinci yarımfəslində respublikamızda ailədaxili münasibətlərin tədqiqinə həsr olunmuş işlərin geniş psixoloji təhlili verilir və problemin nisbətən az öyrənilmiş tərəfləri müəyyənləşdirilir. Göstərilir ki, başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da bütövlükdə ailə, xüsusilə də ailədaxili münasibətlər problemi psixoloqların daim diqqət mərkəzində olmuş, bu sahədə xeyli tədqiqatlar aparılmış, maraqlı nəticələr əldə olunmuşdur. (Ə.Əlizadə, Ə.Bayramov, B.Əliyev, H.Əlizadə, A.Abbasov, R.İbrahimbəyova, İ.Allahverdiyeva, L.Suleymanova, L.Əliyeva, A.Seydulla, K.Şiriyeva, S.Əliyeva və b). Bu tədqiqatların böyük əksəriyyəti etnopsixoloji yönümlüdur və Azərbaycanın müstəqillik dönəminə təsadüf edir. Belə ki, XX əsrin sonlarından başlayaraq ailə problemlərinin psixoloji baxımdan öyrənilməsinə həsr edilmiş tədqiqatlarda ailələrin qurulmasında, mövcud olmasında etnopsixoloji amillərin yeri, əhəmiyyəti, həmin amillərin

təsir imkanları daha çox diqqət mərkəzinə çəkilmişdir. Bu qəbildən olan tədqiqatlar, bir tərəfdən, ailədaxili münasibətlərin qurulması, tənzimlənməsi və inkişafına mane olan zərərli adət-ənənələrimizin, stereotip və yönümlərimizin müəyyən edilməsinə və onlara yenidən baxılmasına, onların təkmilləşdirilməsinə imkan verir və bu sahədə mövcud olan bir sıra qüsurlardan xilas olmağımıza kömək edir. Digər tərəfdən isə qloballaşma şəraitində Azərbaycan mədəniyyəti üçün tipik olan və ailənin qorunub saxlanılması üçün mühüm əhəmiyyət kəsb edən müsbət adət-ənənələrin, dəyərlərin saxlanılması, eyni zamanda, digər mədəniyyətlərin mənfi təsirlərinə məruz qalmaması istiqamətində düşünülmüş, elmi cəhətdən əsaslandırılmış işlərin həyata keçirilməsinə imkan verir.

Tədqiqatların təhlilindən belə bir qənaət hasil olur ki, bu tədqiqatlarda çox maraqlı, faydalı nəticələr alınmışdır və nəticələr nəinki ailədaxili münasibətlərin qurulması, tənzimi və inkişafı, eləcə də ailənin normal fəaliyyəti istiqamətində mühüm əhəmiyyət kəsb edir. Lakin bu tədqiqatlar ailədaxili münasibətlərin müxtəlif tərəflərini eyni dərəcədə əhatə etməmişdir. Belə ki, ailə sisteminin müxtəlif alt sistemləri arasında qarşılıqlı münasibətlərin öyrənilməsi zamanı ər-arvad alt sistemi üzrə münasibətlərə nisbətən daha çox diqqət yetirildiyi halda, digər alt sistemlərə, o cümlədən müxtəlif alt sistemlər arasındakı münasibətlərin öyrənilməsinə yetərincə diqqət yetirilməmişdir. Tədqiqatların bir qismi retrospektiv müşahidələrə əsaslanır və bu səbəbdən də onlarda irəli sürülən fikir və mülahizələr hipotetik xarakter daşıyır. Digər tərəfdən, hazırda xarici ölkə psixologiyasında meydana gələn və ailədaxili münasibətlərin inkişafına, yaxud əksinə, pozulmasına təsiri heç də az olmayan “boşanma yönümü” hadisəsi ilə bağlı problemə isə ümumiyyətlə toxunulmur. Yəni ailədaxili münasibətlərlə bağlı bir çox məsələlər hələ də yetərincə öyrənilməmişdir, Azərbaycan psixologiya elmində bu istiqamətdə yeni-yeni tədqiqatların obyekti olacaq problemlər qalmaqdadır.

Birinci fəslin üçüncü yarımfəsli **“Tədqiqatın metodikası”** adlanır. Bu yarımfəsildə problemin araşdırılmasının yolları, vasitələri nəzərdən keçirilir və tədqiqatın metodikası şərh olunur. Burada ailədaxili münasibətlərin öyrənilməsi istiqamətində həm metodoloji,həm də metodiki və emprik aspektdə meydana gələn çətinliklər araşdırılır. Qeyd olunur ki, “sistem yanaşma” termini real obyektləri onların qarşılıqlı təsirdə olan komponentlərinin məcmusi kimi təsvir etməyə imkan verən metodlar qrupunu ifadə edir. Sistem tədqiqatlarının spesifikliyi heç də təhlil metodlarının mürəkkəbliyi ilə deyil, öyrənilən obyektə yeni yanaşma prinsiplərinin irəli sürülməsi ilə müəyyən olunur. Odur ki, bu yarımfəsildə əvvəlcə sistem təd-

qiqatları zamanı nəzərə alınması vacib olan prinsiplər nəzərdən keçirilir və göstərilir ki, həmin prinsiplərin nəzərə alınması və ailədaxili münasibətlərin öyrənilməsi istiqamətində tətbiq edilməsi o qədər də sadə iş deyil. Çünki ailədə insanların niyyət və rəftarı ailə sisteminin fəaliyyət qaydaları və qanunlarına tabedir. Lakin burada bir cəhəti nəzərə almaq lazımdır ki, ailənin tədqiqinə yönəlmiş metodikalar, şübhəsiz ki, istifadə olunması baxımından sadə olmaqla yanaşı, validlik, universallıq, müyəssərlik və etibarlılıq tələb edir. Burada da elə metodikalara müraciət edilir ki, onlar ailənin magistral problem və xarakteristikalarını ölçməyi təmin etsin və ailənin həyatındakı situativ dəyişmələrdən və müvəqqəti kənaraçıxmalardan minimum asılı olsun. Tədqiqatın fərziyyəsinə və məqsədinə müvafiq olaraq burada tədqiqatçılıq praktikasında özünü doğrultmuş yüksək validliyə malik metodikalardan istifadə olunur.

Metodikanın böyük hissəsini sosial psixologiyanın ənənəvi üsulları olan sorğular təşkil edir. Ailədaxili münasibətləri öyrənmək üçün xüsusi tərtib olunmuş anket sorğusundan istifadə edilmişdir. Anket sorğusu elə tərtib olunmuşdur ki, onun köməyi ilə ailə həyatının müxtəlif tərəflərinə aid lazımi informasiya əldə etmək mümkün olsun. Bundan başqa, tədqiqatda ailədaxili münasibətlərin gərginləşməsi səbəbindən məhkəmə qaydasında boşanmaya müraciət etmiş müxtəlif ailə stajına malik 44 ailə ilə bağlı məhkəmə materialları təhlil olunmuş, ailələrlə fərdi söhbətlər aparılmış, boşanmanın səbəbləri və motivləri araşdırılmışdır. Tədqiqat zamanı həmçinin respublikamızın müxtəlif televiziya kanallarında ailədaxili münasibətlərə həsr olunmuş proqramlar izlənilmiş və burada konkret ailələrlə bağlı aparılan müzakirələr və meydana çıxan mühüm problemlər də araşdırılmışdır.

Göstərilən yol və vasitələrin köməyi ilə əldə olunan materiallar təhlil edilmiş, ümumiləşdirilmiş və sosial-psixoloji aspektdə şərh olunmuşdur.

Dissertasiyanın **“Ailədaxili münasibətlərin strukturu”** adlı ikinci fəsli üç yarımfəsildən ibarətdir. Fəslin **“Ailənin funksional struktur, gender xüsusiyyətləri”** adlanan birinci yarımfəslində ailə struktur baxımdan təhlil olunur, bir sistem kimi onun alt sistemlərinə baxılır, rol strukturu araşdırılır, funksional strukturu keyfiyyət xarakteristikası yönümündə nəzərdən keçirilir. Eyni zamanda, ailənin həm sosial, həm də psixoloji funksiyaları geniş planda təhlil olunur.

İnsanlar arasında istənilən münasibətin yalnız şəxsiyyətlərarası deyil, həm də rol münasibətləri xarakteri daşıması tezisindən çıxış edərək, ailənin rol strukturunun təhlilində həm də belə bir cəhətə diqqət yetirilir: ailə rolları özü də müəyyən struktura malikdir və bu struktur ailə üzvlərinə biri-birilə münasibətə daxil olarkən bunu nə vaxt, hansı ardıcıllıqla etməli olması ilə

bağlı göstəriş verir. Burada daha mürəkkəb məsələ ailənin rol strukturunun birplanlı olmaması ilə şərtlənir. Psixoloji ədəbiyyatın təhlilindən aydın olur ki, ailənin rol strukturunda rolların şəxsiyyətlərarası planı ilə yanaşı, şərti (konvensional) planı da vardır. Şəxsiyyətlərarası rollar ailədə şəxsiyyətlərarası münasibətlərin xarakteri ilə müəyyənləşirsə, şərti rollar sosiomədəni ətraf tərəfindən müəyyən edilmiş olur və hüquqla, adət-ənənələrlə, əxlaq normaları ilə müəyyən olunur. Odur ki, konvensional rollar bir sıra davranış formaları və onların reallaşdırılması üsulları kimi özünü təqdim edir. Məhz bu səbəbdən də rolun qəbulu rolların müvəffəqiyyətlə icra edilməsinin qiymət meyarını müəyyən edən sosiomədəni norma və standartlara uyğun olaraq həyata keçirilir. Bununla bərabər, həm də ata-baba ailəsinin təsirinə məruz qalır və çox vaxt bu təsir dərk olunmadan baş verir. Şəxsiyyətlərarası rolların qəbul edilməsinin xarakterinə uşaqların dünyaya gəlməsi sırası, qardaş və bacıların olması da təsir edir. Ailə quran tərəflərin hiperfunksional və ya hipofunksional olması uşaqların dünyaya gəlməsi sırası ilə şərtlənmiş olur. Hiperfunksional – hipofunksional cütlərin nikahı daha məqbuldur. Çünki burada tələbatların tamamlanması mexanizmi fəaliyyət göstərir.

Bu yarımfəsildə cins-rol differensiasiyası anlayışı ilə bərabər, həm də patoloji mahiyyət kəsb edən rollar, eləcə də rol identifikasıyası, kompetentliyi hadisələri də geniş planda təhlil olunur və ailədə səlahiyyətlərin bölüşdürülməsi ilə bağlı müxtəlif etnosa məxsus olan gənc oğlan və qızlarla (cəmi 138 nəfər, 80 nəfər qız, 58 nəfər oğlan olmaqla) aparılmış anket sorğusunun nəticələri cədvəl şəklində verilir. Ailənin sosial mahiyyəti və təzahürü onun funksiyalarında öz əksini tapdığından burada ailənin sosial və psixoloji funksiyaları da geniş təhlil olunur. Ailənin sosial funksiyaları cəmiyyətin ailədən gözləntiləri ilə bağlıdır. Ailənin psixoloji funksiyaları daha çox aşağıdakı suallarla şərtlənmiş olur: insanlar nə üçün ailə qururlar, onların qarşılıqlı münasibətləri hansı fərdi-psixoloji tələbatların ödənilməsinə yönəldilmişdir və s.

Bu yarımfəsildə ailə həyatının müxtəlif inkişaf mərhələlərində ailə sistemində baş verə biləcək dəyişikliklərlə, eləcə də gender xüsusiyyətləri ilə əlaqədar olaraq ailədaxili münasibətlərdə yarana biləcək gərginlik və çətinliklər də araşdırılır. Belə qənaətə gəlinir ki, həmin gərginlik və çətinliklərin xarakteri və onların yaşanma dərəcəsi ailə mühitinin fiziki, sosial-psixoloji və fərdi-psixoloji parametrlərinin təsiri altında uşaqlıqda formalaşmış stereotip və yönümlərin məzmun və istiqamətindən asılı olacaqdır.

İkinci fəslin **"Ailə konfliktlərinin motivləri. Boşanma fenomeni"** adlanan ikinci yarımfəslində konflikt kimi ailə üzvlərinin bu və ya digər səbəbdən əks olan məqsədlərinin, onlara nail olma vasitələrinin, maraq-

larının, mövqelərinin, rəylərinin toqquşması nəzərdən keçirilir. Belə bir mövqe əsas götürülür ki, konfliktin özü deyil, onun həlli üsulları müsbət, yaxud mənfi xarakter kəsb edir. Odur ki, burada faydalı – konstruktiv və zərərli – qeyri konstruktiv konfliktlər geniş planda təhlil olunur və konfliktin sferası ilə onun səbəbləri, yaxud motivləri anlayışları şərh edilir. Konflikt, adətən, bir deyil, bir neçə səbəbdən, daha doğrusu, səbəblər kompleksindən yaranır və onların arasından şərti olaraq hansısa birisini əsas götürmək olar. Araşdırmalardan belə qənaətə gəlinir ki, ailə konfliktlərinin bir qisminin səbəbləri ailənin qurulmasından əvvəlki hadisələrdən, yəni insanın aldığı tərbiyədən, ailə haqqında təsəvvürlərindən, nikaha daxilolma motivlərindən və eləcə də bir sıra başqa mənbələrdən qaynaqlanır. Bu səbəbdən də ailə konfliktlərinin əsas, aparıcı motivlərini ümumi əsasa görə təsnif etmək olduqca çətindir. Məhz buna görə tədqiqatçılar müxtəlif təsnifatlar irəli sürmüşlər. Bütün bu cəhətləri nəzərə alaraq dissertasiyada ailə konfliktlərinin əsas səbəbləri kimi aşağıdakıları ayırmaq məqsədəuyğun hesab edilmişdir: nikaha kifayət qədər hazırlığın olmaması; müsbət Mən konsepsiyasının müdafiəsi; dəyərlərin, o cümlədən ailə dəyərlərinin üst-üstə düşməməsi; səlahiyyətlərin bölünməsi; ailəyə eqoist yanaşma, özünə istiqamətlənmə; mükəmməl ünsiyyətin olmaması.

Bu yarımfəsildə son 50 ilin kənar qütblərini özündə ehtiva edən iki onillik üzrə həm kənd, həm də şəhər yerlərində yaşayan əhalinin hər min nəfərinə düşən nikah və boşanmaların statistik təhlili də verilmişdir. Təhlillər göstərir ki, nikaha daxilolmaların (hər min nəfər hesabı ilə) sayı azalmış, boşanmalar isə artmışdır. Bu yarımfəsildə Azərbaycan ailələrində münasibətləri boşanmaya gətirib çıxaran pozulmaların səbəblərinin aydınlaşdırılması ilə bağlı müxtəlif staja malik, müxtəlif səbəblərdən boşanan 44 ailənin məhkəmə işinin materialları, təhlil edilmiş, müvafiq nəticələrə gəlinmişdir. Nəticələr göstərir ki, boşanmaların həqiqi səbəbləri ilə məhkəmədə aşkar edilən motivləri heç də həmişə üst-üstə düşmür. Belə ki, məhkəmə araşdırmalarında müəyyən edilən motivlərin 50%-i xasiyyətlərin tutmaması ilə bağlı olduğu göstərilmişdir. Bizim araşdırmalardan isə müəyyən edilmişdir ki, reallıqda həmin səbəb yalnız 11,4% təşkil edir. Məhkəmə araşdırmalarında ailə funksiyalarının yerinə yetirilməməsi səbəbi 0% təşkil etdiyi halda, bizim araşdırmada bu rəqəm 29,5% olmuşdur. Faktlar göstərir ki, boşanma ilə bağlı məhkəməyə müraciətlərin araşdırması lazımi səviyyədə aparılmır və çox vaxt bu işə başdansovdu yanaşılır. Hansı ki, boşanmanın həqiqi səbəblərinin müəyyən edilməsi bu ailələrə lazimi tibbi, psixoloji, hüquqi və sosial yönümlü xidmətlərin təşkili baxımından çox önəmlidir.

İkinci fəslin **"Gəlin-qayınana münasibətlərinin dinamikası"** adlanan üçüncü yarımfaslində qeyd olunur ki, qədimliklə müasirlik, köhnə ilə yeni arasında uyuşma, uyğunlaşma prosesi heç də həmişə asan baş vermir. Ailə kontekstində bu proses nəsillərarası münasibətlər (oğul-ata, qız-ana, qız-ata, oğul-ana, gəlin-qayınana, gəlin-qayınata) zəminində daha çox diqqəti cəlb edir. Həmin münasibətlər sırasında isə əsrlər boyu ən çox müzakirə obyektinə çevrilən gəlin-qayınana münasibətləridir. Gəlin-qayınana problemi yalnız hansısa ayrıca bir xalq üçün deyil, dünyanın hər yerində mövcuddur və bu problem, istər-istəməz, diqqət mərkəzində qalmaqdadır. Lakin hazırda gəlin-qayınana münasibətləri əvvəllər olduğu miqyasda gərginliklərlə müşayiət olunmur. "Ailədaxili münasibətlərdə gərginlik olurmu? Gərginlik ən çox kimlər arasında baş verir? " suallarına verilən cavablar da bunu əyani şəkildə göstərir.

Ailədaxili münasibətlərdə aralarında gərginlik yaşanan tərəflər ( %-lə)

Cədvəl 2.1.

| S.N | Kimlərin arasında | Azərbaycan ailəsində | Kürd ailəsində | Türk ailəsində |
|---|---|---|---|---|
| 1. | Ata və ana | 35 | 27,3 | 38,4 |
| 2. | Ata və uşaqlar | 20 | 9,0 | 27,0 |
| 3. | Ana və uşaqları | 18,8 | 27,3 | 7,6 |
| 4. | Uşaqlar arasında | 26,2 | 36,4 | 27,0 |
| Cəmi | | 100 | 100 | 100 |

Göründüyü kimi, ailə münasibətlərində aralarında gərginlik yaşanan tərəflər arasında gəlin-qayınana cütlüyü yer almamışdır. Çünki sorğuda iştirak edən 128 nəfərdən 18-nin ailəsində qayınana dünyasını dəyişmişdir. Digər tərəfdən, hazırda cəmiyyət, demək olar ki, iki nəsildən (valideyinlər və uşaqlar) ibarət olan ailələrdən təşkil olunmuşdur. Baxılan halda yalnız üç ailədə gəlin və qayınana bir yerdə yaşayır. Bununla belə, gəlin və qayınanın birlikdə yaşamadığı halda belə, sorğu iştirakçılarının 57 nəfəri gəlinlə qayınana arasında müəyyən problemlərin yaşandığını bildirmişdir. Bu yarımfəsildə qeyd olunan problemlərin hansı səbəblərdən qaynaqlandığına aydınlıq gətirilmiş və real həyatdan götürülmüş konkret ailələrin nümunəsində gəlin-qayınana münasibətlərinin dinamikası araşdırılmışdır. Burada gəlin-qayınana münasibətlərinin dinamikasını müəyyən edə biləcək çoxsaylı amillərin olduğu da vurğulanır və göstərilir ki, bu amillərin bir qismi sosial, digər qismi sosial-psixoloji mahiyyət kəsb edir, üçüncü qismi fərdi-psixoloji xüsusiyyətlərlə şərtlənir. Burada bioloji amillərlə bağlı məqamların da

mühüm rol oynadığı qeyd edilir. Bütün bu amillərin kompleks şəkildə nəzərə alınması ailədaxili münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

**"Ailədaxili münasibətlərin optimallaşdırılması və tənzimlənməsinin yol və vasitələri"** adlanan üçüncü fəsil **"Ailədaxili münasibətlərin tənzimlənməsi məsələləri"** və **"Ailədaxili münasibətlərə psixoloji təsirin yol və vasitələri"** adlı iki yarım fəsildən ibarətdir. Burada ailədaxili münasibətlərə təsir edən amillər araşdırılır, həmin münasibətlərin tənzimlənməsi, ona məqsədyönlü təsir etməyin yol və vasitələrinin seçilmə çətinlikləri qeyd olunur. Göstərilir ki, amillərin çoxluğu seçiləcək yol və vasitələrin də çox və rəngarəng olmasını tələb edir. Bütövlükdə, bu yarımfəsildə ailədə müəyyən qaydaların, uşaqlara fərqli münasibətin, ailəyə kənar müdaxilələrin olub-olmaması və eləcə də qloballaşma şəraiti ilə bağlı məsələlərin ailədaxili münasibətlərdə yarada biləcəyi gərginliklər, ailədaxili münasibətlərin normal axarda cərəyan etməsini şərtləndirən amillər araşdırılır. Bu istiqamətdə konkret hallarla bağlı yol və vasitələr göstərilir. Əldə olunan nəticələrin bir qisminə diqqət yetirək.

Ailədə qaydaların olub-olmamasının ailədaxili münasibətlərə təsiri

Cədvəl 3.1

| S.N | Ailədə müəyyən qaydaların olub-olmaması | Göstərici %-lə | S.N | Ailədaxili münasibətlərdə gərginlik olub-olmaması | Göstərici %-lə |
|---|---|---|---|---|---|
| 1. | Ailədə müəyyən qaydalar mövcuddur | 83,5 | 1. | Ailədə gərginlik yaşanır | 90,6 |
| | Qaydalar pozulur<br>a) tez-tez<br>b) nadir hallarda<br>c) pozulmur | <br>30,8<br>52,4<br>16,8 | | a)tez-tez<br>b)nadir hallarda | 33,6<br>66,4 |
| 2 | Ailədə qaydalar mövcud deyil | 16,5 | 2. | Ailədə gərginlik yaşanmır | 9,4 |

Göründüyü kimi, ailələrin əksəriyyətində (83,5%) müəyyən qaydaların olmasına baxmayaraq, onların 90,6%-də ailədaxili münasibətdə az və ya çox dərəcədə gərginlik yaşanır. Yəni qaydaların olması hələ hər şey demək deyil. Həm də bu qaydaların xarakteri, sərtlik dərəcəsi, onların kim tərəfindən

qəbul edilməsi, ailədə uşaqlara fərqli münasibətin olması və s. məsələlər də mühüm əhəmiyyət kəsb edir.

Ailədaxili məsələlərə edilən müdaxilələr də münasibətlərdə müəyyən gərginliyə səbəb olur. Bunu aşağıdakı cədvəldən də aydın görmək olar.

Ailədaxili məsələlərə edilən müdaxilələrin münasibətlərə təsiri

Cədvəl 3.2

| S.N | Müdaxilələrin kim tərəfindən edilməsi | Nəticə %-lə | S.N | Müdaxilə nəticəsində münasibətlərində gərginlik yaşanan tərəfləri | Nəticə %-lə |
|---|---|---|---|---|---|
| 1. | nənə və babalar | 34,5 | 1. | ər-arvad | 55,6 |
| 2. | xalalar | 27,5 | 2. | ana və uşaqlar | 22,2 |
| 3. | bibilər | 13,8 | 3. | ata və uşaqlar | 7,4 |
| 4. | əmilər | 6,9 | 4. | gəlin-qayınana | 7,4 |
| 5. | başqa qohumlar | 6,9 | 5. | ata və baba | 3,7 |
| 6. | ailənin ailə qurmuş övladları | 6,9 | 6. | ər-arvad-qayınana | 3,7 |
| 7. | qonşular | 3,5 | | | |
| | Cəmi; | 100,0 | | | 100,0 |

Cədvəldən də göründüyü kimi, ailədaxili məsələlərə müdaxilələr ən çox babalar və nənələr (nənələrin müdaxiləsi daha çox qeyd olunur), bibilər və xalalar tərəfindən edilir və belə müdaxilələrin təsiri daha çox ər-arvad (55,6%), ana və uşaqlar arasında (22,2%) gərginliyin yaşanmasına gətirib çıxarır.

Bütün bunlarla bərabər, bu yarımfəsildə, hər bir xalqın, millətin özünəxas ailə ənənələri, ailə münasibətləri sistemi, ailənin əsaslarını təşkil edən əxlaqi, dini norma və davranış qaydalarının mövcudluğu qeyd olunur və ailə münasibətləri sisteminin xalqın şüurunda nəinki adət-ənənə, stereotip və yönüm şəklində sabitləşdiyi, həm də xalqın təhtəlşüur sferasına nüfuz edib möhkəmləndiyi göstərilir. Eyni zamanda, vurğulanır ki, həmin stereotip və yönümlərə, norma və qaydalara vaxtaşırı olaraq yenidən baxılmalı, onlar təkmilləşdirilməli və lazımi maarifləndirmə işləri aparılmalıdır.

Ailədaxili münasibətlər probleminin sosial-psixoloji tədqiqi ilə bağlı psixoloji ədəbiyyatın elmi-nəzəri təhlili və apardığımız tədqiqatdan əldə olunmuş məlumatlar aşağıdakı **nəticələrə** gəlməyə imkan vermişdir:

— Problemin nəzəri və empirik tədqiqi göstərir ki, ailədaxili münasibətlərin struktur təhlili və inkişaf dinamikasının səciyyəvi cəhətlərinin müəyyənləşdirilməsi bir tərəfdən, sosial-demoqrafik problemlərin həlli, eləcə də

ailəyə xidmət çərçivəsində lazımi psixokorreksiya və psixoprofilaktika işinin düzgün qurulması, digər tərəfdən, ailədə və məktəbdə uşaqların tərbiyəsində yol verilən qüsurların aradan qaldırılması baxımından olduqca əhəmiyyətli və aktualdır.

— Aparılmış tədqiqatlar göstərir ki, ailədaxili münasibətlərin müxtəlif tərəfləri heç də eyni səviyyədə öyrənilməmişdir. Əksər tədqiqatlarda bu münasibətlərin doğurduğu konfliktlərə və onların həlli yollarına daha çox diqqət yetirilmişdir. Həm də ailə sisteminin müxtəlif alt sistemləri arasında qarşılıqlı münasibətlərin öyrənilməsi zamanı ər-arvad alt sistemi üzrə münasibətlərə daha çox diqqət yetirilmiş, digər alt sistemlərdə və eləcə də müxtəlif alt sistemlər arasındakı münasibətlərin öyrənilməsi nisbətən arxa plana keçmişdir. Bu birtərəflilik ailə ilə bağlı müəyyən psixoprofilaktik və psixokorreksiya işinin düzgün istiqamətdə qurulmasında bir sıra çətinliklər yaratmaqla bərabər, həm də göstərilən psixoloji xidmətin lazımi səmərə verməsinə mənfi təsir göstərir.

— Ailədaxili münasibətlərin öyrənilməsində əsas məsələ yalnız ailə üzvləri arasındakı münasibətlərin müəyyən edilməsi deyil, bütövlükdə, ailə sisteminin xassələri, qaydaları və eləcə də bu sistemin elementləri arasında qarşılıqlı əlaqə və münasibətlərin xarakterinə aydınlıq gətirilməsidir.

-Müəyyən edildi ki, ailə mühiti, ailənin sosiofiziki və fərdi-psixoloji məkanlarının birgə təsiri nəticəsində ailə alt sistemləri arasında müvafiq münasibət və əlaqələr yaranır və həmin təsirin xarakterindən asılı olaraq ailə ya funksional, ya da disfunksional olur.

— Ailədə etnik psixoloji xüsusiyyətlərin təsiri xüsusilə səlahiyyətlərin bölünməsi zəminində daha güclü şəkildə özünü büruzə verir. Bu təsir daha çox etnik, milli şüurda formalaşmış gender təsəvvürləri ilə bağlı olub milli adət-ənənələrdən, stereotip və yönümlərdən dini zəmində formalaşan təsəvvürlərdən qaynaqlanır. Bu cəhət müxtəlif etnoslarda (Azəri türkləri, Türkiyə türkləri, Kürd və Ərəb etnoslarında) nisbətən fərqli çalarlara malikdir. Səlahiyyətlərin ər-arvad arasında bərabər paylanması halına, digər etnoslarla müqayisədə bizim etnosa məxsus ailələrdə daha çox rast gəlinir. Məhz ali psixi tələbat kimi özünüaktuallaşdırma tələbatı belə ailələrdə, yəni ərlə arvadın eqalitar ittifaqında ödənilə bilər.

— Tədqiqatın nəticələrindən aydın oldu ki, boşanma ilə bağlı məhkəmə araşdırmalarında boşanmanın həqiqi motivləri çox vaxt üzə çıxarılmır, yalnız ikinci dərəcəli əhəmiyyət kəsb edən səbəblər əsas götürülür ki, bu da, bir tərəfdən, boşanma hallarının artmasına, digər tərəfdən isə boşanmanın qarşısının alınması ilə bağlı lazımi və elmi cəhətdən əsaslandırılmış məsləhətlərin verilməsinə əngəl olur.

— Əldə olunan nəticələrdən həm də aydın oldu ki, qızların kişilərlə bağlı fikirlərində bir yumşaqlıq, həlimlik, oğlanların qadınlarla bağlı fikirlərində isə bir amiranəlik, hökmlülük var. Bu isə qarşılıqlı münasibətlərdə bərabərhüquqluluğu, qarşılıqlı kömək və əməkdaşlığı nəzərdə tutmayan, münasibətlərdə gərginlik üçün zəmin yarada biləcək bir düşüncə tərzidir.

— Apardığımız araşdırmalardan və eləcə də digər tədqiqatların nəticələrindən aydın oldu ki, ailədə müəyyən qaydaların olması ailə alt sistemləri arasında müvafiq sərhədlərin olması üçün mühüm əhəmiyyət kəsb edir. Belə sərhədlərin olması sistemin elementlərini birləşdirir, onları xarici stresslərdən qoruyur və xaricdən daxil olan informasiyalara nəzarət edir. Optimal qarşılıqlı münasibətlərdə sərhəd aydın və nüfuzediləndir. Belə münasibətlər isə əlaqələri və fərdiyyəti itirmədən fərdi məkanı saxlamağa imkan verir. Lakin tədqiq etdiyimiz ailələrin bir çoxunda mövcud olan qaydalar ya həddindən artıq sərtdir, ya ümumi istəyi nəzərə almır, ya da çevik deyil. Məhz bu səbəblərdən də həmin qaydalar işə yaramır, ailə üzvlərində yalançılıq, yaltaqlıq və s. kimi mənfi keyfiyyətlərin formalaşması üçün zəmin yaradır. Odur ki, ailədə mövcud qaydalara vaxtaşırı yenidən baxılmalı, təkmilləşdirilməli və düzəlişlər edilməlidir. Daha doğrusu, ailə özünün qaydalarına münasibətdə çeviklik göstərməlidir.

— Tədqiqat göstərir ki, əksər hallarda konfliktin sferasi ilə səbəbi eyniləşdirilir. Əslində isə bir çox hallarda konfliktin sferası ilə motivi üst-üstə düşmür. Belə hallar da olur ki, konfliktin səbəbi ərlə arvad tərəfindən dərk olunmur, yəni motiv (səbəb) hansısa bəhanə ilə pərdələnmiş olur.

— Ailədaxili münasibətlərdə konflikt və gərginliklərin yaranmasında sosiomədəni və etnopsixoloji amillərlə yanaşı, nikaha daxil olan tərəflərin ailədə dünyayagəlmə sırası da müəyyən rol oynayır. Belə ki, hiperfunksional-hipofunksional xətt üzrə olan cütlərin ittifaqından yaranmış ailələr daha rahat və uğurludur. Hiperfunksional–hiperfunksional və eləcə də hipofunksional-hipofunksional cütlərin ittifaqından yaranan ailələrlə bağlı bunu demək çətindir. Bu xətt üzrə olan gəlin-qayınana haqqında da analoji fikir söyləmək olar. Eyni funksionallığa malik cütlər biri-digərini tamamlamadığından (tamamlayıcı tələbatlar mexanizmi) onlar arasında müxtəlif gərginliklər yaşanır.

— Tədqiqat nəticələri göstərir ki, gəlin-qayınana münasibətlərinin dinamikası müxtəlif amillərlə şərtlənmiş olur. Burada həm nikaha daxilolma motivi, boşanma yönəlikliyi, həm də gəlin və qayınananın fərdi psixoloji xüsusiyyətləri, onlara xas olan şəxsiyyət tipləri, ailə məsələlərinə müxtəlif müdaxilələrin olması, uşaqlara fərqli münasibət və s. kimi amillər mühüm rol oynayır.

Dissertasiyanın əsas müddəaları **müəllifin** aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Ailə konfliktlərinin psixoloji məsələləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2007, № 2, s.194-198
2. Azərbaycan ailəsində ailədaxili məsələlər: valideyn-uşaq münasibətləri // Dünyaya baxış, Bakı, 2008, №4, s.66-69
3. Ailənin funksional strukturu: gender xüsusiyyətləri // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, Bakı, 2009, №1, s.223-227
4. Семья и основные ее функции: супружеские отношения // Вестник, Серия Философия, социология, политология, Астана, 2010, №9, ст. 143-147.
5. Ailə konfliktləri və onların motivləri: boşanma fenomeni // Dünyaya baxış, Bakı, 2010, №1, s.73-78.
6. Ценности молодой семьи: новые тенденции. Система ценностей современного общества / Сборник материалов VII Международной научно-практической конференций. Новосибирск : 2011 ст. 130-132.
7. Проблемы внутрисемейных отношений в реалити-шоу и в жизни: сравнительный анализ / Психология и педагогика: Методика и проблемы практического применения. Сборник материалов XVIII Международной научно-практической конференций. Новосибирск: 2011, с. 198-200.
8. Azərbaycan gəncləri arasında şəxsiyyət və ailədaxili münasibətlərin öyrənilməsinin sosial-psixoloji xüsusiyyətləri // AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Elmi əsərləri, Bakı, 2013, № 1, s.81-87
9. Некоторые тенденции изменения семейных ценностей в Азербайджане // Вестник МГУ, серия Психология, Москва, 2014, №2, с.74-81.
10. Müasir dövrdə kompüter və mobil telefonların uşaqların inkişafına təsirinin xüsusiyyətləri //Mədəniyyət dünyası, Bakı, 2014, s. 152-158.
11. İKT-nin ailə tərbiyəsinə təsirinin sosial-psixoloji mahiyyəti // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, Bakı, 2014, №3, s.233-236.
12. Müasir şəraitdə ailə tərbiyəsinin fəlsəfi-psixoloji aspektləri / AMEA, Səfəvişünaslıq XXI əsrin astanasında fəlsəfi problemlər aktual mövzular, elmi-praktiki konfransının materialları. Bakı: 2014, s. 131-133.
13. Azərbaycan ailələrində gəlin-qayınana münasibətlərinin sosial-psixoloji xüsusiyyətləri // Geostrategiya, Bakı, 2014, №1, s.53-55.

**Кямалова Афет Гулу гызы**

# ДИНАМИКА ВНУТРИСЕМЕЙНЫХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКИХ СЕМЬЯХ

## Резюме

Диссертационная работа посвящена исследованию актуальной для социальной психологии проблемы – динамики внутрисемейных отношений в азербайджанских семьях. Внутрисемейные отношения во все времена были одним из наиболее интересных и значимых социально-психологических вопросов. В настоящее время во всем мире, в том числе в Азербайджане, с каждым годом увеличивается число разводов. С другой стороны, также ощущаются определенные негативные тенденции, связанные с дальнейшим развитием семьи. Поэтому, системное и научное исследование данной проблемы является своевременным и актуальным.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы. Во **Введении** обосновывается актуальность темы, определяются уровень ее разработанности, объект, предмет, цели и задачи, научная новизна, научное и практическое значение, вынесенные на защиту основные положения исследования, приводятся сведения о его апробации и структуре.

В главе I под названием **«Историко-теоретические вопросы исследования внутрисемейных отношений»** основное внимание уделяется постановке данной проблемы в научной литературе, вопросам, связанным с основательным анализом системы семьи с функциональной, эволюционной, структурной точки зрения. Проведенное научно-теоретическое исследование позволяет проанализировать внутрисемейные отношения, а также сформировать модель, пригодную для оказания семье психологических услуг.

Глава II диссертации называется **«Структура внутрисемейных отношений».** Здесь исследуется функциональная структура семьи, а также проводится широкий анализ имеющихся научных исследований в рамках системного подхода. На основании этого в сравнительном аспекте с точки зрения гендерного подхода исследуется существующее положение с распределением обязанностей в семье у некоторых этносов (азербайджанцев, турков, курдов, арабов). Здесь, опираясь на материалы судебных дел, также исследуются ошибки, допущенные в ходе

выявления причин и мотивов разводов в семьях с различным семейным стажем. Кроме этого, в данной главе был проведен статистический анализ в связи с феноменами мотивов семейных конфликтов и разводов, в результате которого получены полезные обобщения.

В главе III под названием **«Пути и средства оптимизации и регулирования внутрисемейных отношений»** на основании анализа конкретных фактов и примеров выдвигаются определенные предложения, мнения и суждения, которые могут быть полезны с практической точки зрения.

В **Заключении** диссертации обобщаются полученные результаты, и формулируются конкретные предложения.

**Afet Gulu gizi Kamalova**

# DYNAMICS OF INTRAFAMILY RELATIONS IN THE AZERBAIJANI FAMILIES

## Summary

Dissertational work is devoted to the researching of dynamics of intrafamily relations in the Azerbaijani families as an actual problem for social psychology. Intrafamily relations were one of the most interesting and significant socially-psychological questions for at all times. Now all over the world, including in Azerbaijan, the number of divorces are increases every year. On the other side, also are felt the certain negative tendencies connected with the further development of a family. Therefore, system and scientific research of the given problem is timely and actually.

Dissertational work consists of the introduction, three chapters, the conclusion and the list of used literature. In **Introduction** is proved the theme urgency, are defined the level of its readiness, object, a subject, the purposes and problems, scientific novelty, the scientific and practical value, the substantive provisions of research taken out on protection, are resulted data on its approbation and structure.

In the chapter I under the name **"Historical-theoretical questions of research of intrafamily relations"** the basic attention is put to statement of the given problem in the scientific literature, to the questions connected with the thorough analysis of system of a family from the functional, evolutionary, structural point of view. The carried out scientific-theoretical research allows to analyses of intrafamily relations, and also to generate model, suitable for rendering of psychological services to a family.

The chapter II of the dissertation is called **"Structure of intrafamily relations".** Here the functional structure of a family is investigated, and also the wide analysis of available scientific researches within the limits of the system approach is carried out. There on the basis of it in comparative aspect from the gender approach's point of view is investigated the existing position with distribution of duties in a family at some ethnoses (Azer-baijanians, Turks, Kurds, Arabs). Here, leaning on the materials of proceeding actions, also are investigated the errors admitted during revealing of the reasons and motives of divorces in families with the various family experience. Besides, in this chapter has been carried out the statistical analysis in connection with phenomena of motives of family conflicts and

divorces in which result are received useful generalisations.

In the chapter III under the name **"Ways and means of optimisation and regulation of intrafamily relations"** on the basis of the analysis of the concrete facts and examples are brought certain offers, opinions and judgments which can be useful from the practical point of view.

In the **Conclusion** part of the dissertation are generalised the received results, and are formulated specific proposals.